

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

05 mart 2026-cı il, cümə axşamı
№ 042 (7109)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Enerji diplomatiyasının yeni uğurları




## Cənub Qaz Dəhlizi Məşvərət Şuralarının iclası Azərbaycanın qlobal enerji təhlükəsizliyində əhəmiyyətini nümayiş etdirdi

Bax səh. 2

## Mehriban qonşuluq və humanizm...



Bax səh. 3

## “Yaşıl investisiya” dialoqu

Bax səh. 3

## Qlobal qarşıdurmalar fonunda sülh amili...

Son dövrlərdə qlobal konfrontasiyaların miqyası genişlənməkdə davam edir və bu proses yeni nizama mənfi təsirlər göstərir: siyasi münasibətlər sistemi, dialoq mühiti zərər görür, iqtisadi təmərküzləşmə ən azı ləngiyir. Sirr deyil ki, dünyada baş verən siyasi gərginliklər təkcə təhlükəsizlik arxitekturasını deyil, həm də ticarət marşrutlarını, enerji xəritəsini və investisiya axınlarını yenidən şəkilləndirir - hətta indiki məqamda, sarsıdır. Bu gün qlobal transformasiya əsasən Avrasiyanın mərkəzində cərəyan edir. Xüsusilə Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz və Kiçik Asiya xətti boyunca yeni iqtisadi konturlar meydana çıxır, alternativ nəqliyyat və enerji dəhlizləri qurulur, regional inteqrasiya təşəbbüsləri genişlənir. Bu coğrafiya artıq təkcə keçid məkanı deyil, həm də qərarların verildiyi, iqtisadi və siyasi balansın müəyyənləşdiyi strateji məkana çevrilir.

**Dünyanın diqqəti regiona dikilib...**

Paralel olaraq qlobal qarşıdurmalar yeni düzənin sürətli və keyfiyyətli transformasiyasını gecikdirir. Rusiya-Ukrayna müharibəsi, Pakistan-Əfqanıstan xəttindəki gərginlik, eləcə də Yaxın Şərqdə baş verən hadisələr regional sabitliyi sarsıdır və qlobal iqtisadi hədəflərə birbaşa təsir göstərir. Halbuki yeni iqtisadi mərhələnin əsas şərti sabitlikdir. Sülh hər zaman olduğu kimi, yenə də ön plana çıxmalıdır. Ortada mühüm bir nümunə var...

Bax səh. 5



Bax səh. 3

## “Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış”

Bax səh. 4

## Həyatı özünə işlədən adam

Bax səh. 7

## Qubanın Qərbi Azərbaycan sevdası

Vətən və yurd anlayışları hər kəs üçün, xüsusən də biz azərbaycanlılar üçün müqəddəs anlayışlardır. Gündəlik leksikonumuzdakı “ana vətən”, “ doğma yurd” ifadələri də elə-belə yaranmayıb. Yəni insan üçün anasından, doğmalarından daha əziz kim ola bilər?! Ona görə də təbiətinin, tarixinin nə dərəcədə zəngin və cəlbedici olub-olmamasından asılı olmayaraq hər kəs üçün öz vətəni, doğma yurdu daha əzizdir. Baxın, insanlar XXI əsrdə belə rahat yolu, əkinəyararlı torpaqları, yaşıllıqları, hətta yaxınlıqda içməli su mənbələri olmayan yerləri belə doğulduğu, boya-başa çatdığı yurdudur deyə tərk etmirlər.

Qarabağ əraziləri separatçılardan, silahlı terrorçu dəstələrdən təmizləndikdən sonra Azərbaycan hakimiyyətinin rəsmi təminatı olduğu halda belə oradakı ermənilərin hamısı köçüb getdilər. Çünki onlar çox yaxşı bilirdilər ki, Qarabağ lap əzəldən onların vətəni olmayıb. Amma Qərbi Azərbaycandakı ata-baba yurdlarından vəhşicəsinə deportasiya olunmuş azərbaycanlıların hər biri 50-100 ildir ki, o torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləməkdədirlər. Axı, onlar bütöv Azərbaycanın dilbər guşəsi olan Qərbi Azərbaycan ərazisində Göyçə, Vedibasar, Zəngibasar, Dərələyəz, Şəmşədli, Dərəçiçək, Qırxbulaq, Seyidli, Ağbaba, Sərdarabad və bu kimi çoxsaylı yurd yerlərini məcburən qoyub gəliblər. Min illər boyu bu insanların ulu...

Bax səh. 5

## Müharibənin 5 günü...



Bax səh. 6

## Ötən əsrin ən böyük təhlükəsi!



Bax səh. 7

# Prezident İlham Əliyev İranın ölkəmizdəki səfirliyində...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxslərin həlak olması ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev İrana səfərləri zamanı Ayətullah Seyid Əli Xamenei ilə görüşlərini həmişə ən xoş təəssüratlarla xatırlayacağını dedi.

Müctəba Dəmirçilu səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.



# Enerji diplomatiyasının yeni uğurları

## Cənub Qaz Dəhlizi Məşvərət Şuralarının iclası Azərbaycanın qlobal enerji təhlükəsizliyində əhəmiyyətini nümayiş etdirdi

Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası bir daha Azərbaycanın qlobal enerji təchizatçısı kimi əhəmiyyətli rolunu və mövqeyini nümayiş etdirdi. Dünya ölkələrinin enerji təhlükəsizliyinə dair mühüm məsələlərin müzakirə olunduğu tədbirdə enerji təhlükəsizliyi və dayanıqlı təchizat sahələrində əməkdaşlığın və tərəfdaşlığın gücləndirilməsi ilə bağlı gələcək birgə addımların istiqamətləri müəyyənləşdirildi ki, bu da Azərbaycanın bölgədə aparıcı və əlaqələndirici ölkə olmasını təsdiqləyir.

Azərbaycan mükəmməl enerji diplomatiyası yürüdərək həm də regionun tranzit-logistika qovşaqlarında yeni geosiyasi xəritə tərtib edib, açıq dənizə çıxışı olmasa da, Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilib. Enerji layihələri və bu sahədən qazanılan milli gəlir sütunlarına söykənməklə nəhəng nəqliyyat infrastrukturu qurub, Avrasiyanın enerji xəritəsini zənginləşdirib. Məşvərət Şurasının iclasında çıxış edən Prezident İlham Əliyevin bəyan etdiyi kimi 12 il əvvəl başlanmış bu təşəbbüsün ildən-ilə genişlənməsi və enerji təhlükəsizliyinə dair vacib qərarların qəbul edilməsi birgə nailiyyətlərin əldə edilməsinə səbəb olub. Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklər, mürəkkəbliklər və problemlər fonunda və regionda yaşanan olduqca ağır dövrlər şəraitində Azərbaycan öz tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin olunmasında daim iradəli addımlar atıb, mümkün görünməyənləri reallığa çevirib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrini müvəffəqiyyətlə icra edərək neft strategiyasını zənginləşdirib. Son illərdə isə enerjinin yeni şaxəsi olan təbii qaz nəqli ilə yeni tədarükçü adını qazanıb. Tərəfdaş dövlətlərlə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa edən Azərbaycan 3600 kilometrlik Cənub Qaz Dəhlizi enerji zəncirini qurub, bir çox ölkənin enerji təhlükəsizliyinə sərmayə yatırımı ilə geosiyasi əhəmiyyətini artırıb.








### Suriyaya qaz nəqli - enerji həmrəyliyinin nümunəsi

Məhz bu qətiyyətli enerji diplomatiyası sayəsində Azərbaycan qazının ixrac edildiyi dövlətlərin sayı artaraq 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir. Artıq qaz təchizatının coğrafiyasının genişləndirilməsi başqa reallıqları da meydana çıxarıb. Belə ki, yanacağın nəqlinin Avropa hüdudlarından kənardakı istiqamətlərə ünvanlanması, o cümlədən Yaxın Şərq bölgəsinə - ilk dəfə olaraq Suriyaya çatdırılması enerji həmrəylik arxitekturasını gücləndirib. Azərbaycan bu addımı ilə dünyada həm də etibarlı və dost tədarükçü olduğunu təsdiqləyib. Çünki Suriyaya 1,5 milyard kubmetr həcmində Azərbaycan qazının tədarükü həm də bu ölkənin böhrandan çıxışının bir açarı olmuşdur. Hamıya yaxşı məlumdur ki, elektrik enerjisi olmadan heç bir inkişaf əldə etmək mümkün deyil. Bu, həm Suriya, həm region, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, həmin ölkəyə qazın çatdırılması sayəsində həyat ritminin bərqərar olması və sabit inkişaf infrastrukturun yaradılması təmin edilib.

Enerji siyasətində şaxələndirmə amilinə xüsusi diqqət yetirən Azərbaycan istehsalçı, tranzit və istehlakçı vəhdətini qurmaqla əməkdaşlıqda yeni mərhələ açır və qarşıdakı illərdə daha yeni coğrafi hüdudlarda təminatçı statusunu bərqərar etmək istəyir. 2026-cı ildən Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamaqla, Avropa İttifaqının 10 üzv dövlətinin təchizatçısına çevrilib.

Azərbaycan artıq Qərbi və Mərkəzi Avropada yanacaq şəbəkəsi qurmaqla, qarşıdakı illərdə yeni qaz hasilatı ilə əlaqədar hasilat həcmlərini artırmaq və mövcud qaz nəqli infrastrukturlarını genişləndirməklə Cənub Qaz Dəhlizinin arterial potensialını da artırmaq niyyətindədir. Belə ki, cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözlənilir ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda, "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir. Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağı 2028-ci ildə yeni hasilat dövrünə daxil olacaq.

Mövcud proqnozlara görə, 2026-ci ildə ölkəmizin Avropa regionuna ixracı 15 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na əsasən, 2027-ci illərdə ölkəmizin Avropaya qaz nəqli 20 mlrd. kub.metrədək artırılacaq. Bu reallıq-

### Cənub Qaz Dəhlizinin genişləndirilməsi

dır. Bu mühüm nailiyyətlərdən biri Avropanın enerji qapısı hesab edilən İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin yaradılmasıdır. Bu, neft məhsullarının xarici ölkələrdə satışı üçün yeni mənbə deməkdir. Egey dənizinin Türkiyə sahillərində Azərbaycan 12 milyon tonluq neftayırma müəssisəsinə malikdir və Aralıq dənizində (İtaliya) yeni emal blokunun istifadəyə verilməsi ölkəmizin illik 22 milyon ton emal potensialının yaranması deməkdir. Bu isə Azərbaycanın təkcə xam neft tədarükçü ilə yanaşı, Avropa regionunda böyük neft məhsulları emalı və yanacaqdoldurma stansiyası şəbəkəsinə malik təminatçı rolunun güclənməsində yeni bir amil olacaq.

lar isə Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüd edir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.

Həmçinin, Azərbaycan xarici ölkələrdə davamlı sərmayələr qoymaqla nəhəng enerji emalı və satışı infrastrukturları qurur. SOCAR aparıcı qlobal investor kimi bir neçə ölkədə ən müasir neft emalı kpomplekslərini və paylayıcı enerji məntəqələri yara-

Nəticədə bütün hasilat profilləri maksimum istehsal səviyyəsinin 10-15 milyard kubmetr həcmində olacaq və qaz əldə etməsinə imkan verəcək. Bu isə yuxarıda da vurğuladığımız kimi yeni bazarlara çıxmaq, yeni alıcı tələbatlarını ödəmək üçün mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyacları artırır.

**Tərəfdaş dövlətlərlə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa edən Azərbaycan 3600 kilometrlik Cənub Qaz Dəhlizi enerji zəncirini qurub, bir çox ölkənin enerji təhlükəsizliyinə sərmayə yatırımı ilə geosiyasi əhəmiyyətini artırıb**

**Enerji siyasətində şaxələndirmə amilinə xüsusi diqqət yetirən Azərbaycan istehsalçı, tranzit və istehlakçı vəhdətini qurmaqla əməkdaşlıqda yeni mərhələ açır və qarşıdakı illərdə daha yeni coğrafi hüdudlarda təminatçı statusunu bərqərar etmək istəyir. 2026-cı ildən Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamaqla, Avropa İttifaqının 10 üzv dövlətinin təchizatçısına çevrilib**

### Xəzər regionunun Avropaya inteqrasiyası üçün yeni planlar

Azərbaycan eyni zamanda, enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu da oynayır. Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Bu, onu göstərir ki, bölgənin daha da aktuallıq qazanan yeni neft xəritəsi fonunda Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındadır. Eyni zamanda, Xəzər regionunun digər ölkələrinin qaz mənbələrinin də Cənub Qaz Dəhlizinə qoşulması istiqamətində intensiv müzakirələr artır. Məqsəd təkcə Xəzər mənbəyindən Avropaya illik 50 milyard kubmetrdən çox qaz nəqlinin əldə olunmasıdır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Türkmən qazını bu dəhlizə cəlb edilməsi və Avropaya çatdırılması üçün hüquqi mexanizm və beynəlxaql sazişlər olmalıdır ki, bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır.

Beləliklə, neft və qaz nəqlində dayanıqlı infrastruktura malik ölkə olan Azərbaycan çoxnövlü enerji ixracları bloku qurmaqda, dünya nəqletmə sistemində strateji mövqeyini möhkəmləndirməkdədir.

*E.CƏFƏRLİ*

# “Yaşıl investisiya” dialoqu



## Azərbaycan və qlobal investorlar arasında tərəfdaşlıq imkanları dəyərləndirilib

Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında əsas müzakirə olunan mövzulardan biri “yaşıl enerji” mənbələrinin istehsalı və nəqlində birgə tərəfdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsi ilə bağlı olub. Tədbirdə çıxış edən Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan bölgədə həm də bərpaolunan enerji mənbəyinə malik zəngin ölkədir. Bu məsələ bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsini təşkil edir və “yaşıl gündəlik” onu təsdiqləyir ki, bir çox ölkə, o cümlədən Avropa dövlətləri Azərbaycanın alternativ enerji güclərinə böyük maraq göstərir.

## Avropa İttifaqı və ABŞ-la “yaşıl tərəfdaşlıq”

Məşvərət Şurasının iclasında çıxış edən Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin bildirdiyi kimi, enerji təhlükəsizliyinin gələcəyi təmiz keçid və elektrikləşmədədir. Avropa İttifaqında rekord templərlə bərpaolunan enerji imkanlar inkişaf etdirilir, 2025-ci ildə elektrik enerjisinin 45 faizi bərpaolunan mənbələrdən alınıb. Azərbaycanın ənənəvi yanacağın istehlakını azaltmaqla bağlı iradəsi və həyata keçirdiyi siyasət Aİ-nin prinsipləri ilə üst-üstə düşür. Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasında “Yaşıl bağlantılar üzrə investisiya” mövzusunda Azərbaycan-Avropa İttifaqı dəyirmi masası da keçirilib ki, tədbirdə bağlantılar və ötürmə, bərpaolunan enerji layihələri, elektrik şəbəkələri, enerji səmərəliliyi, enerji saxlanması üzrə əməkdaşlıq diqqət mərkəzində olub. Tədbirdə Azərbaycan və Aİ biznes dairələri arasında tərəfdaşlıq imkanları dəyərləndirilib.

Yeri gəlmişkən, Azərbaycan “yaşıl enerji” sahəsində ABŞ-la da sıx əməkdaşlıq qurub. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının əsas istiqamətlərindən biri “yaşıl hidrogen” və bərpaolunan enerji mənbələrinin tədarükü və nəqli proseslərinə dəstək verilməsi, fəal əməkdaşlıqdır. Azərbaycanın “yaşıl enerji” üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Vaşinqtonun dəstəklədiyi enerji konsepsiyasına uyğundur. Bütün bunlar onu göstərir ki, ABŞ-ın “yaşıl enerji” proqramlarında Azərbaycanla birgə əməkdaşlığı üçün fürsət və mühit də formalaşıb.

## Dünyanın nüfuzlu şirkətləri ilə yeni sazişlər

Azərbaycan hökumətinin “yaşıl enerji” sektorunda həyata keçirdiyi strategiyanın əsas xətti yerli “yaşıl güclərin” istehsalı və emalına xarici investorların cəlb edilməsidir. Bu istiqamətdə müəyyən edilmiş siyasət öz uğurlu nəticələrini göstərməkdədir. Son 3 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb. 2023-cü ildə “Masdar” şirkəti 230 meqavat gücündə Günəş elektrik stansiyası inşa edib. Cari ilin yanvarında “ACWA Power” tərəfindən maliyyələşdirilən regionun ən böyük külək elektrik stansiyasının açılışı olub. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışı gözlənilir. Həmçinin, ötən il 240 MVt gücündə “Şəfəq” Günəş Elektrik Stansiyası və Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihələri üzrə yekun investisiya qərarları imzalanıb. Ümumilikdə, ötən il də daxil olmaqla, son 3 ildə Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 45 şirkətin təmsil olunduğu “yaşıl enerji” alyansının formalaşması təmin edilib.



## Hədəf 2032-ci ilə qədər 6-8 giqavat elektrik enerjisi

Azərbaycan 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyir. Həmin resursların ixracı enerji diplomatiyasında mühüm yer tutur. İxrac üçün ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birgə işlər aparılır. Hər iki xətt üzrə müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə işlər davam edir.

Qeyd edək ki, “Yaşıl Enerji Dəhlizi” layihəsi 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması ilə ərsəyə gəlib. Dörd ölkənin imzaladığı sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında tərəflər arasında yeni enerji əməkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və “yaşıl enerji”nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin (“Qara dəniz” kabeli) icrasını təmin etmək üçün Rumıniyanın “Transelectrica”, Azərbaycanın “Azərenerji” ASC, Gürcüstanın “Elektrik Şəbəkəsi” və Macarıstanın “MVM” şirkəti arasında da saziş imzalanıb. “Yaşıl enerji” həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan ediblər. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı “Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan “təmiz” elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.

Beləliklə, Azərbaycanın yürütdüyü “yaşıl enerji” siyasəti bütün region ölkələrinin birgə enerji həmrəyliyini genişləndirməklə yeni mərhələyə daxil olub. Ölkəmizin bərpaolunan enerji potensialının artması əsas hədəflərdən biri olan - “yaşıl enerji”nin Avropa İttifaqına nəqli üçün imkanları daha da artırmaqla, hədəfə daha tez çatmağı şərtləndirir.

**E.CƏFƏRLİ**

# Mehriban qonşuluq və humanizm...



Müasir dövrdə dünya siyasətində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən xarici siyasət kursunun səmərəliliyindən asılıdır. Səmərəli və praqmatik xarici siyasət kursu milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitlik və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunə kimi çıxış edir.

## Mehriban qonşuluğun önəmi...

Bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib.

Azərbaycanın xarici siyasəti isə beynəlxalq hüquq prinsiplərinə əsaslanan, mehriban qonşuluq, qarşılıqlı hörmət və humanizm prinsiplərinə söykənən uğurlu bir xəttdir. Regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli və humanitar siyasəti bu kursun əsasını təşkil edir. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulmasına böyük önəm verir. Azərbaycan regionda geosiyasi və iqtisadi birləşdirici körpü rolunu oynayır, enerji və nəqliyyat layihələri (məsələn, Bakı-Tbilisi-Qars, Şimal-Cənub) ilə qonşuların iqtisadi əlaqələrini dəstəkləyir.

Bununla belə yaxın regionlarda qonşu dövlətlərin ərazilərində baş verən hərbi toqquşmalar ciddi narahatlıq doğurur. Bu mənada, Yaxın Şərqdə yenidən alovlanan münaqişə bütün region üçün təhlükədir. Azərbaycan da yaranmış vəziyyətdən narahatdır. Çünki İran Azərbaycanın yaxın qonşusudur, bu ölkədə milyonlarla azərbaycanlı yaşayır.



## İran Azərbaycana təşəkkür edir

Azərbaycan dünyada, o cümlədən yaxın regionumuzda sülh və sabitliyin tərəfdarıdır. Ölkəmiz hər zaman bu mövqeyini nümayiş etdirib. Təsadüfi deyil ki, Azərbaycan bir sıra qarşı duran tərəflər arasında vasitəçilik edib, eləcə də onların görüşlərinə evsahibliyi edib. Buna nümunə olaraq, ABŞ - Rusiya, NATO - Rusiya, İsrail - Suriya nümayəndələri arasında keçirilən görüşləri göstərmək olar.

Eyni zamanda, Azərbaycan üçüncü ölkələrin öz ərazisindən qonşu dövlətlərə qarşı istifadəsinə heç zaman icazə verməyib. Bu faktı İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu keçirdiyi mətbuat konfransında da təsdiqləyib. “Xarici işlər nazirləri arasında telefon danışığı olub. Ceyhun Bayramov və Seyid Abbas Əraqçi son proseslərlə bağlı fikir mübadiləsi aparıblar. Həmin telefon danışığında Azərbaycanın rəsmi mövqeyi ifadə edilib və qeyd olunub ki, Azərbaycan heç vaxt öz ərazisindən İrana qarşı hər hansı təhdidə yol verməyəcək. Biz hər zaman buna inanmışıq. Azərbaycanın ən yüksəksəviyyəli rəsmiləri də bu mövqeni açıq şəkildə bəyan ediblər”-deyə səfir vurğulayıb.

Diplomat həmçinin qeyd edib ki, İran özünümüdafiə məqsədilə “düşmənlərinin” regiondakı hərbi bazalarına endirdiyi zərbələr regionun dost və qonşu ölkələrinə qarşı yönəlməyib: “Bu, yalnız təcavüzkar ölkələrin İrana qarşı atdığı addımlara cavabdır”.

Səfir Azərbaycan dövlətinə və xalqına minnətdarlığını da bildirib: “Azərbaycan bu çətin dövrdə həm rəsmi, həm də qeyri-rəsmi başsağlığı mesajları ilə həmrəylik nümayiş etdirib və öz dəstəyini ifadə edib. Bu, ortaq mədəniyyətimizin və münasibətlərimizin bir göstəricisidir və buna görə təşəkkürümüzü bildiririk”.

## Ölkəmizin vasitəsilə əcnəbilərin İrandan təxliyəsi davam edir

Onu da qeyd edək ki, İran ətrafında münaqişənin alovlanmasından sonra bu ölkədəki xarici ölkə vətəndaşlarının Azərbaycan ərazisi vasitəsilə təxliyəsi həyata keçirilir. Bu fakt isə ölkəmizin humanitar siyasətinin bariz göstəricisidir. Məlumdur ki, Azərbaycan müxtəlif ölkələrə humanitar yardımlar göstərir, ekoloji və təbii fəlakətlər zamanı dəstək nümayiş etdirir. Eyni zamanda, ölkəmiz dünyada multikulturalizm və tolerantlıq mərkəzi kimi çıxış edərək, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynayır. Bütövlükdə, humanitar siyasət Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və regionda sülh və əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

Yeri gəlmişkən, xatırladaq ki, fevralın 28-dən etibarən müxtəlif ölkələrin yüzlərlə vətəndaşı İrandan Azərbaycan sərhədi vasitəsilə təxliyə olunub. Həmin ölkələr arasında Çin, Rusiya, Tacikistan, Pakistan, Oman, Səudiyyə Ərəbistanı, Gürcüstan, Belarus, Serbiya, İsveçrə, Yaponiya, Qətər, Fransa, İtaliya, Böyük Britaniya, Polşa və s. var.

Beləliklə, ölkəmizin mövqeyi bərabərlik, qarşılıqlı anlaşma və mehriban qonşuluq, humanizm prinsiplərinə əsaslanır. Azərbaycanın mehriban qonşuluq siyasəti regionda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Gərginliyin davam etdiyi hazırkı şəraitdə də dövlətimiz bu mövqeyini həyata keçirməkdədir.

**Nardar BAYRAMLI**

# “Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış”















Martın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə “Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Tibb Universitetinin inzibati binasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli hazırda beynəlxalq müstəvidə gərgin proseslərin baş verdiyini bildirib. Onun sözlərinə görə, önəmli geostrateji məkanda yerləşən Azərbaycan bu gün dünyada sabitlik adası kimi tanınır: “Müstəqil Azərbaycan çətin sınaqlardan keçib, ölkəmizin yüksəlişinə böyük zəhmət sərf olunub. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi qətiyyətli siyasətlə Azərbaycanı bütün təhlükələrdən xilas edərək inkişaf yoluna çıxardı. Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirir”.

G.Gəraybəyli deyib ki, qazanılan uğurlar, xüsusilə ərazi bütövlüyünün və mütləq suverenliyin bərpası Azərbaycanın beynəlxalq arenada mövqelərini möhkəmləndirib. “Bu gün regionda bütün irimiqyaslı layihələr ölkəmizin iştirakı, milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycanın beynəlxalq səviyyədə əldə etdiyi bütün uğurlar yeni çağırışlarla səsləşir. Ölkəmiz Cənubi Qafqazda sülhün, əmin-amanlığın, davamlı inkişafın təşəbbüskarı kimi çıxış edir”, - deyə rektor əlavə edib.

O qeyd edib ki, müəyyən xarici dairələr ölkəmizin uğurlarını həzm edə bilmirlər, ona görə də müxtəlif vasitələrlə təzyiq göstərməyə cəhd edirlər: “Həmin dairələr gənclərimizi də zərərli ideoloji istiqamətlərə yönəltməyə çalışırlar. Lakin vətənpərvər Azərbaycan gəncliyi hər zaman ayıq-sayıqdır. Gənclərlə ideoloji iş Azərbaycan Tibb Universitetində daim diqqət mərkəzindədir”.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov müasir müstəqil Azərbaycan dövlətinin şərəfli inkişaf yolu keçərək tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini bildirib: “Müstəqilliyin bərpasından sonrakı ilk illərdə ölkəmizin bir dövlət kimi mövcudluğu sual altında idi. Bəzi qüvvələr Azərbaycanın parçalanması istiqamətində məqsədli fəaliyyət göstərirdilər. Xalqımızın yeganə ümid yeri isə dahi şəxsiyyət Heydər Əliyev idi. 1992-ci ildə 91 nəfər ziyalının Ulu Öndərə müraciət etməsi və müdrik dövlət xadiminin bu müraciətə müsbət cavab verməsi nəticəsində Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması Azərbaycanın təlatümlərdən qurtularaq inkişaf yoluna çıxmasını şərtləndirdi”.

Tahir Budaqov Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə Azərbaycana qarşı yönəlmiş məkrli planların qarşısının məharətlə alındığını və xalq-iqtidar birliyinin təmin olunduğunu söyləyib. Onun sözlərinə görə, Ulu Öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində sabitlik və təhlükəsizliyin, sosial-iqtisadi inkişafın təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etdi.

YAP Sədrinin müavini bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edərkən müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: “Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirməkdədir. Azərbaycanın möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına nail olması isə xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir”.

Tahir Budaqov əlavə edib ki, müstəqil siyasət həyata keçirən, dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu gün nəinki regionda, daha geniş coğrafiyada söz sahibi olan bir dövlətdir: “Ölkəmiz sülh diplomatiyası həyata keçirərək bölgədə yeni siyasi konfiqurasiyanın qurulmasında aparıcı rol oynayır. Eyni zamanda, Azərbaycanın qlobal əhəmiyyətli təşəbbüsləri beynəlxalq səviyyədə dəstəklənir”.

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. YAP Nəsimi rayon təşkilatının təsis konfransının Azərbaycan Tibb Universitetində keçirildiyini xatırladan Tahir Budaqov bu ali təhsil ocağının hər zaman nümunəvi fəaliyyəti ilə seçildiyini və bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski Azərbaycanın tərəqqisində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, hələ SSRİ dövründə ölkəmizin yüksəlişini təmin edən Ulu Öndər müstəqilliyin bərpasından sonra yenidən siyasi hakimiyyətə gəldikdən sonra xalqımıza böyük uğurlar qazandırdı: “Bu gün isə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan qüdrətli və qalib dövlətə çevrilib”.

Azərbaycanda 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunmasının əhəmiyyətindən bəhs edən Vaqif Şadlinski Ümummilli Liderin bu sahədə əvəzsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, 1969-cu ildən etibarən Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda, xüsusilə Bakıda möhtəşəm şəhərsalma işləri həyata keçirilib: “Yeni ərsəyə gətirilən tikililərdə daha çox milli memarlıq ənənələrinə üstünlük verilib. Cari ildə isə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində yerli və beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanı bu baxımdan dünyaya daha yaxından tanıdacaqdır”.

Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Azərin Şükürlü çıxışında bildirib ki, bu gün Azərbaycan gənclərinə təhsil almaq, öz potensialını reallaşdırmaq və inkişaf etmək üçün yaradılmış imkanlar gələcəyə inamı daha da möhkəmləndirir: “Bu inamın arxasında güclü dövlət siyasəti və ardıcıl inkişaf strategiyası dayanır. Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmaq mənim üçün sadəcə siyasi seçim deyil. Bu, şüurlu və məsuliyyətli qərardır. Bu qərar dövlətçiliyimizə sədaqət, müasir Azərbaycanın inkişaf modelinə inam və gələcəyin quruculuğunda fəal iştirak istəyindən doğur. Yeni Azərbaycan Partiyası gənclər üçün geniş imkanlar platformasıdır. Burada gənclərin təşəbbüsləri dəstəklənir, ideyalarına dəyər verilir və onların ictimai-siyasi fəallığı təşviq olunur. Bizim üzərimizə isə böyük məsuliyyət düşür. Dövlətimiz bizə güvənir. Bu inamı doğrultmaq isə bizim borcumuzdur”.












Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 29 sentyabr tarixli Sərəncamı ilə təltif olunmuş Rafiq Musa oğlu Məmmədhəsənova 2-ci dərəcəli “Əmək” ordeni təqdim olunub.

Rafiq Məmmədhəsənov fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonra partiya sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

# Qlobal qarşıdurmalar fonunda sülh amili...

## Sabitlikdən inkişafa gedən yol: yeni siyasi arxitektura üçün dialoqun vacibliyi

Son dövrlərdə qlobal konfrontasiyaların miqyası genişlənməkdə davam edir və bu proses yeni nizama mənfi təsirlər göstərir: siyasi münasibətlər sistemi, dialoq mühiti zərər görür, iqtisadi təmərküzləşmə ən azı ləngiyir. Sirr deyil ki, dünyada baş verən siyasi gərginliklər təkcə təhlükəsizlik arxitekturasını deyil, həm də ticarət marşrutlarını, enerji xəritəsini və investisiya axınlarını yenidən şəkilləndirir - hətta indiki məqamda sarsıdır. Bu gün qlobal transformasiya əsasən Avrasiyanın mərkəzində cərəyan edir. Xüsusilə Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz və Kiçik Asiya xətti boyunca yeni iqtisadi konturlar meydana çıxır, alternativ nəqliyyat və enerji dəhlizləri qurulur, regional inteqrasiya təşəbbüsləri genişlənir. Bu coğrafiya artıq təkcə keçid məkanı deyil, həm də qərarların verildiyi, iqtisadi və siyasi balansın müəyyənləşdiyi strateji məkana çevrilir.

**Dünyanın diqqəti regiona dikilib...**

Paralel olaraq qlobal qarşıdurmalar yeni düzənin sürətli və keyfiyyətli transformasiyasını gecikdirir. Rusiya-Ukrayna müharibəsi, Pakistan-Əfqanıstan xəttindəki gərginlik, eləcə də Yaxın Şərqdə baş verən hadisələr regional sabitliyi sarsıdır və qlobal iqtisadi hədəflərə birbaşa təsir göstərir. Halbuki yeni iqtisadi mərhələnin əsas şərti sabitlikdir. Sülh hər zaman olduğu kimi yenə də ön plana çıxmalıdır. Ortada mühüm bir nümunə var - Azərbaycanın 2020-ci ildən başlayaraq son 6 ildə formalaşdırdığı model göstərdi ki, təhlükəsizlik və siyasi sabitlik iqtisadi inkişafın əsas katalizatoru və qoruyucu mexanizmidir.




Bu gün bütün dünyanın diqqəti məhz Avrasiya məkanına və burada sülhün - ən azı dayanıqlı sabitliyin - təmin olunmasına yönəlib. Çünki məhz bu region qlobal enerji təhlükəsizliyinin, nəqliyyat-kommunikasiya xətlərinin və yeni ticarət platformalarının mərkəzində dayanır. Hər kəs sabitlik və sülh arzusundadır. Lakin əsas sual dəyişməz qalır: bu sülhü necə institusional və davamlı etmək mümkündür? Yeni dünya düzəninin taleyi məhz bu sualın cavabından asılıdır.

**Sülh və əməkdaşlıq: yeni inkişaf mərhələsinin başlanğıcı...**

Avrasiyada yeni inkişaf mərhələsi Azərbaycan-Türkiyə strateji əməkdaşlığı ilə start götürüb desək, yanılmarıq. Bu tərəfdaşlıq təkcə ikitərəfli münasibətlərin yüksək səviyyəsi deyil, həm də daha geniş coğrafiyada yeni siyasi və iqtisadi alətlərin formalaşması deməkdir. Son illərdə Bakı-Ankara xətti regional inteqrasiyanın əsas sütunlarından birinə çevrilib və özünü təsdiqləyib, bu birlik Avrasiyanın geoiqtisadi xəritəsində yeni dinamika yaradıb.

Məhz bu birlik yeni siyasi alətlər formalaşdırıb:

- TDT üzərindən siyasi-iqtisadi bağların möhkəmləndirilməsi;
- Bölgənin yeni iqtisadi inkişaf konsepsiyasının hazırlanması;
- Yeni enerji xəritəsinin formalaşdırılması;
- Yeni münasibətlər sisteminin hazırlanması.

Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşməsi türk dünyasında vahid iqtisadi və siyasi platformanın formalaşmasına təkan verib - bu isə geocoğrafi anlamda yeni bir inkişaf periodikası və trayektoriyası yaradıb. Bu platforma Orta Asiyadan Qafqaza, oradan isə Anadolunun üzərindən Avropaya uzanan geniş inteqrasiya xəttini əhatə edir. Enerji layihələri, nəqliyyat dəhlizləri və logistika imkanları bu əməkdaşlığın praktik nəticələridir.

Azərbaycan ilə Türkiyənin bölgədə başlatdığı bu siyasi "hərəkətlənmə" sonradan Mərkəzi Asiya tərəfindən də uğurla regiona transfer edildi. Qazaxıstan, Özbəkistan və digər region dövlətləri yeni iqtisadi modelə inteqrasiya olunaraq vahid əməkdaşlıq məkanının genişlənməsinə töhfə verdilər. Bu proses Avrasiyada alternativ iqtisadi inkişaf platformasının formalaşdığını göstərir. Başqa sözlə, artıq Avrasiya yeni inkişaf mərhələsinin bir addımlığındadır. Əsas məsələ bu mərhələyə keçidi sürətləndirmək və siyasi riskləri minimuma endirməkdir. Bunun üçün isə təhlükəsizlik mühiti və qarşılıqlı etimad əsas şərtdir.

**Bölgədə sabitliyin bərqərar olması üçün...**

Sülh və inkişaf paralel anlayışlardır. Biri olmadan digərinin davamlılığı mümkün deyil. Müasir dövrdə iqtisadi artım, investisiya cəlbediciliyi və regional inteqrasiya birbaşa təhlükəsizlik mühiti ilə bağlıdır. Müharibə və qeyri-müəyyənlik geocoğrafi kapitalı uzaqlaşdırır, infrastruktur layihələrini ləngidir və uzunmüddətli planlaşdırmanı mümkünsüz edir. Buna görə də Avrasiyada yeni iqtisadi mərhələnin reallaşması üçün ilk növbədə siyasi sabitlik və qarşılıqlı etimad mühiti formalaşmalıdır.

Sülh üçün isə təmas mütləqdir. Dialoq platforması, vasitəçilik mexanizmi və tərəflərin etibar etdiyi aktor olmadan davamlı razılaşmalar əldə etmək çətindir. Bu vəzifəni yerinə yetirmək üçün regional aktorların inandığı, hər iki tərəfin güvəndiyi və balanslı siyasət yürüdə bilən dövlətə ehtiyac var. Bu dövlət Türkiyədir. Türkiyə həm coğrafi mövqeyi, həm NATO üzvlüyü, həm də region ölkələri ilə tarixi və mədəni bağları sayəsində unikal vasitəçilik imkanlarına malikdir.

Türkiyə bu gün qlobal təhlükəsizlik mühitinin formalaşmasında olduqca vacib rol oynaya bilər. Həm Yaxın Şərqdə, həm Ukrayna böhranında, həm də Əfqanıstanda yaranan qarşıdurmaların aradan qaldırılmasında Ankaranın rolu mümkündür. Türkiyə indiyədək müxtəlif platformalarda vasitəçilik təşəbbüsləri ilə çıxış edib və tərəfləri dialoqa dəvət edib. Bu balanslaşdırılmış siyasət modeli regionda etimad yaradan nadir nümunələrdəndir.

Adıçəkilən münaqişələrin həllində Türkiyənin töhfə vermək ehtimalı üzrə real faktlar mövcuddur. Məsələn, Ukrayna münaqişəsi hələ yeni-yeni başladığı dövrlərdə Ankara tərəfləri ilk dəfə masa arxasına oturtdu - ərzaq təhlükəsizliyinin təmini üçün "Taxıl sazişləri" imzalandı. Bütün Cənubi Asiya üçün ciddi təhlükəsizlik təhdidi yaradan Əfqanıstan-Pakistan münaqişəsinin həllindəki iştiraka gəldiklə isə, ötən həftə ABŞ-ın Əfqanıstan üzrə xüsusi nümayəndəsi Zalmay Xəlilzadın fikirlərinə istinad etmək olar - "Əfqanıstan və Pakistan arasındakı münaqişəni həll etmək üçün üçüncü tərəfin iştirakı lazımdır. Ən yaxşı həll yolu iki ölkə arasında Türkiyə kimi etibarlı üçüncü tərəfin nəzarəti altında diplomatik razılaşma olardı", - deyə o bildirib.

Beləliklə, Türkiyənin fəal iştirakı Avrasiyada sülhün institusional əsaslarının yaradılmasına, nəticə etibarilə isə yeni iqtisadi düzənin daha sürətli formalaşmasına xidmət edə bilər.

**Türkiyə həm çağırış edib, həm də dialoq yaratmağa çalışıb...**

Eyni fikirlər Yaxın Şərqdə cərəyan edən qanlı döyüşlərə də aid edilə bilər. Türkiyə dəfələrlə bu barədə çağırışlar edib. Hətta müharibənin ilk günündə, fevralın 28-də Türkiyə tərəfləri İran böhranı ilə əlaqədar hücumlara son qoymağa çağırmışdı. Hadisələrin bölgənin gələcəyini və qlobal sabitliyi təhlükə altına qoyduğunu qeyd edən Türkiyə regiondakı məsələlərin sülh yolu ilə həllinə ehtiyac olduğunu vurğulayaraq Ankaranın vasitəçilikdə lazımi dəstəyi göstərməyə hazır olduğunu bildirmişdi. Bir neçə gün öncə Türkiyə Prezidenti Ərdoğan bölgədə gərginliyin artmasından təəssüfləndiyini bildirmişdi - O, Türkiyənin "sülhə və sabitliyə yönəlmiş diplomatiyasını" davam etdirdiyini vurğulamışdı. "Danışıqlar masasında problemlərin ədalətli həllinə nail olmaq üçün qətiyyətli səylər göstəririk. Qan tökülməsinə son qoymağa və bölgənin qardaş ölkələri arasında düşmənçiliyin dərinləşməsinin qarşısını almağa çalışırıq", - deyə dövlət başçısı bildirmişdi.

Yeri gəlmişkən, bununla bağlı Türkiyə KİV-inə geniş müsahibə verən XİN başçısı Hakan Fidan qeyd edib ki, müharibənin təsirləri bütün bölgəyə yayılır. Fidan bildirib ki, artıq müəyyən ölkələrlə konsensus yaratmaq üçün çalışılır: "Region olaraq vəziyyətin pisləşməsinin qarşısını necə alacağımız üzərində işləyirik."

Müharibənin dayandırılması üçün vasitəçilik səyləri ilə bağlı H.Fidan Türkiyənin bu məqamda vasitəçi ola biləcəyini söyləyib. Fidan çoxsaylı görüşlər keçirdiklərini və hazırda "atəşkəsə necə nail olmaq" yollarını axtardıqlarını bildirib. Hakan Fidan onların səyləri ilə atəşkəsə nail olmağa ümid etdiyini, lakin müharibənin müəyyən bir müddət davam edəcəyini proqnozlaşdırdığını və potensial problemlərə qarşı bütün lazımi tədbirləri gördüklərini vurğulayıb.

**Davamlı təhlükəsizlik...**

Beləliklə, qarşıdakı dövrdə bölgədə əsas vəzifə siyasi dialoqu imkan dərəcəsində genişləndirmək, regional əməkdaşlıq mexanizmlərini gücləndirmək və sülh təşəbbüslərini institusional çərçivəyə salmaqdır. Yeni dünya düzəninin açarı məhz Avrasiyada - sabitlik, əməkdaşlıq və ortaq inkişaf modelinin reallaşmasındadır.

Əgər Avrasiya məkanında davamlı təhlükəsizlik təmin olunarsa, burada formalaşan iqtisadi platforma qlobal miqyasda yeni balans yarada bilər. Türkiyənin vasitəçilik potensialı, Azərbaycanın təşəbbüskar mövqeyi və türk dünyasının inteqrasiya meyilləri bu prosesin əsas dayaqlarıdır.

***P.İSMAYILOV***

# Qubanın Qərbi Azərbaycan sevdası

Vətən və yurd anlayışları hər kəs üçün, xüsusən də biz azərbaycanlılar üçün müqəddəs anlayışlardır. Gündəlik leksikonumuzdakı "ana vətən", " doğma yurd" ifadələri də elə-belə yaranmayıb. Yəni insan üçün anasından, doğmalarından daha əziz kim ola bilər?! Ona görə də təbiətinin, tarixinin nə dərəcədə zəngin və cəlbedici olub-olmamasından asılı olmayaraq hər kəs üçün öz vətəni, doğma yurdu daha əzizdir. Baxın, insanlar XXI əsrdə belə rahat yolu, əkinəyararlı torpaqları, yaşıllıqları, hətta yaxınlıqda içməli su mənbələri olmayan yerləri belə doğulduğu, boya-başa çatdığı yurdudur deyə tərk etmirlər.

Qarabağ əraziləri separatçılardan, silahlı terrorçu dəstələrdən təmizləndikdən sonra Azərbaycan hakimiyyətinin rəsmi təminatı olduğu halda belə oradakı ermənilərin hamısı köçüb getdilər. Çünki onlar çox yaxşı bilirdilər ki, Qarabağ lap əzəldən onların vətəni olmayıb. Amma Qərbi Azərbaycandakı ata-baba yurdlarından vəhşicəsinə deportasiya olunmuş azərbaycanlıların hər biri 50-100 ildir ki, o torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləməkdədirlər. Axı, onlar bütöv Azərbaycanın dilbər guşəsi olan Qərbi Azərbaycan ərazisində Göyçə, Vedibasar, Zəngibasar, Dərələyəz, Şəmşədli, Dərəçiçək, Qırxbulaq, Seyidli, Ağbaba, Sərdarabad və bu kimi çoxsaylı yurd yerlərini məcburən qoyub gəliblər. Min illər boyu bu insanların ulu babaları o yerlərdə yaşayıb, yaradıb, böyük və zəngin bir tarixi-mədəni irs qoyub gediblər.

Çar Rusiyasının XIX əsrdən başlayaraq tədricən ermənilərə peşkəş etmiş olduğu o yerləri necə unutmaq olar?! Bax, Azərbaycan dövlətinin Qərbi Azərbaycana qayıdş siyasəti də məhz mərhələ-məhələ deportasiyaya məruz qalmış soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıtmaq arzusundan, istəyindən, indiki halda isə həm də təşkilatlanaraq mübarizə aparmaq əzmində olmalarından irəli gəlir. Azərbaycan hakimiyyətinin Qərbi Azərbaycana qayıdış siyasəti əslində elə beynəlxalq humanitar siyasətin də təməl prinsipidir.

Təqdirəlayiq haldır ki, Qərbi Azərbaycan İcmasının bu istiqamətdəki aydın platforması respublikamızın bütün şəhər və rayonlarında insanlar tərəfindən son dərəcə isti qarşılanmaqdadır. Respublikamızın əksər şəhər və rayonlarında Qərbi Azərbaycan İcmasının nümayəndəliklərinin yaradılması isə buna bariz misaldır.

Bu il o qədər də sabit keçməyən fevral günlərində məzuniyyət müddətimin bir neçə gününü Qubada keçirməli oldum. Doğrusu, xeyli vaxt idi ki, bu tərəflərə yolum düşməmişdi. Ona görə də ziyalı dostum, şair Ramiz Qusarçaylı ilə görüşəndə ilk olaraq Quba yenilikləri ilə maraqlandım. O isə Qərbi Azərbaycan İcmasının Quba nümayəndəliyində olmağı məsləhət gördü. Biz birlikdə oraya yollandıq...

İnanın səmimiyyətimə, oraya sadəcə nümayəndəlik deməyə dilim gəlmir. Ora əslində çox yaxşı düşünülmüş, mükəmməl dizayn edilmiş bir mədəniyyət mərkəzi təsiri bağışlayır. Orada Qərbi Azərbaycan reallıqlarından xəbər verən nələr yoxdur?! İrəvan xanlığı, onun mahalları və digər yaşayış məntəqələrinin əyani şəkildə təqdim olunduğu xəritələr, diaqramlar və fotostendlər nələrdən xəbər vermir?! Qərbi Azərbaycandan deportasiya olunaraq Qubada məskunlaşmış insanların şəxsiyyətini, peşəsini, fəaliyyət sahələrini, hətta hərbi mükəlləfiyyətli olub olmadığını bildirən ilkin sənədlər və daha nələr?!. Bu sənədlər bizə deyir ki, zaman-zaman Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızdan 4217 nəfəri məhz Quba rayonunun ayrı-ayrı yaşayış məntəqələrində məskunlaşmışdır. Bu minvalla da uzun illərdir ki, acı deportasiya taleyi yaşamış soydaşlarımızın niskili də, sevdası da Qubada hər kəsin qayğı və düşüncəsinə hakim kəsilib. Hansı ki, bu niskil və sevda Qərbi Azərbaycan İcmasının Quba nümayəndəliyində səliqə ilə yanyana düzülmüş kitab rəflərindəki bədii və tarixi əsərlərdən də oxunmaqdadır. O kitablar, o əsərlər ki, onların xeyli qisminin müəllifi və ya qəhrəmanları elə Qərbi azərbaycanlıların özləridir. Daha bir qismi isə Qərbi azərbaycanlıların həyat və mübarizə hekayələri ilə dolu olan əsərlərdir.











Sağ olsun o insanlar ki, Qərbi Azərbaycan İcmasının bir növ salnaməsi olan o kitabları, o əsərləri sevə-sevə Quba nümayəndəliyinə hədiyyə ediblər. Bu minvalla da Quba nümayəndəliyində o kitablardan ibarət dəyərli bir fond formalaşıb.

Xalqımızın Qərbi Azərbaycan yaddaşını təzələyərək yaşadan belə bir nümunəvi mədəniyyət ocağının yaradılmasının təşəbbüskarı, təşkilatçısı və canı qəlbdən ona sponsorluq edən insanlara ürəkdən alqış düşür. Əlbəttə, ünvanına ilk alqışlar səslənməli olan o böyük insan isə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, Qarabağ fatehi İlham Əliyevdir. Çünki Qərbi Azərbaycana qayıdışın yolu Qarabağın işğaldan azad olunmasından keçirdi ki, bunu da məhz cənab Prezident etdi.

Sağ olsun o insanlar ki, ölkə rəhbərliyinin və rayon sakinlərinin ehtimadını doğruldaraq vəzifə və vətəndaşlıq borclarını şövqlə, vicdanla icra edirlər.

Mən bu yerdə nümayəndəliyin yaradılmasında xüsusi xidmətləri olan Qərbi Azərbaycan İcması Quba nümayəndəliyinin rəhbəri, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, biologiya elmləri üzrə fəlsəfə doktoru, filosof alim İlham Qaraqurbanlının, Quba rayonundan millət vəkili, iqtisad elmləri doktoru, professor, istedadlı nasir Əlibala Məhərrəmzadənin və Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin rəhbəri, şair dostumuz Ramiz Qusarçaylının adını minnətdarlıq hissi ilə qeyd etməyi özümə borc bilirəm.

Qubada gəzməli, görməli, adamı ruhən saflaşdıran yerlər, məkanlar çoxdur. İndi bu sıraya Qərbi Azərbaycan İcmasının Quba nümayəndəliyi də daxildir. Elə gün yoxdur ki, orada müxtəlif görüşlər, tədbirlər keçirilməsin. Bəli, cəmisi 3 ay öncə fəaliyyətə başlayan Quba nümayəndəliyi qısa vaxt ərzində rayon gənclərinin, şəhid ailələrinin, müharibə veteranlarının, ziyalıların, sadə zəhmət adamlarının ən çox ziyarət etdiyi ünvana çevrilib. Burada vaxtaşırı olaraq respublikanın tanınmış elm adamları, ziyalıları, söz-sənət və siyasət adamları ilə görüşlər təşkil edilir, müsabiqə və disputlar keçirilir. Bu cür rəngarəng tədbirlər silsiləsindən şəhid ailələri, "Vətən naminə" şəhid ailələrinə dəstək İctimai Birliyi, Azərbaycanın Qadın Sahibkarlar Assosiasiyasının nümayəndələri, bölgədə fəaliyyət göstərən ədəbi məclislərin iştirakçıları, Elm və Təhsil Nazirliyinin keçirdiyi "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qalibi, rayonun Əliməmmədova kənd orta məktəbinin XI sinif şagirdi Aydan Rəcəbova ilə olan görüşləri xüsusi qeyd etmək istərdim. Təbiidir ki, bu qəbildən olan tədbirlər insanların, xüsusən də yetişməkdə olan gənc nəslin yaddaşını Qərbi Azərbaycan sevdası ilə daha da dolğunlaşdırmağa xidmət edir.

Qərbi Azərbaycan İcmasının Quba nümayəndəliyinin binasına daxil olan hər kəsin ilk olaraq diqqətini cəlb edən Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin portretləri altında yazılmış iki sitat cəlb edir. Ulu Öndərə aid sitat belədir: "Mən buna inanıram, inanıram ki, o yerlərin sahibləri - azərbaycanlılar oraya qayıdacaqdır!" Prezident İlham Əliyevə aid sitatda isə bu gün artıq hər bir azərbaycanlının dilində şüara çevrilmiş olan, insanlara ruh verən "Biz Qərbi Azərbaycana mütləq qayıdacağıq" sözləri yazılıb. Bu isə o deməkdir ki, Qərbi Azərbaycan İcmasının Quba nümayəndəliyində olan, orada təşkil olunan tədbirlərdə iştirak edən hər kəs bir daha əmin olur ki, bəli, nə zamansa indiki Ermənistan ərazisindəki ata-baba yurdlarından vəhşicəsinə deportasiya olunan soydaşlarımız, onların övladları və nəvənəticələri mütləq o yerlərə geri dönəcəklər. Həm də bunun üçün elə də çox gözləməli olmayacaqlar. İnşallah, belə də olar!

***Qafar Cəbiyev,***
***AMEA Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar jurnalisti***




# Qarşıdurma davam edir: 1097 mülki şəxs həyatını itirib

Yaxın Şərqdə qarşıdurma davam edir. Yayılan məlumatlara görə, fevralın 28-dən martın 4-nə qədər İranda 1097 mülki şəxs öldürülüb. Onlardan 181-i 10 yaşadək uşaqlardır.

ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri Bredli Kuper "X" hesabındakı paylaşımında fevralın 28-dən bu yana baş tutan əməliyyat zamanı ABŞ ordusunun 17 İran gəmisini məhv etdiyini, 2000 hədəfə zərbə endirildiyini yazıb. "Bizə atəş aça biləcək hər şeyə diqqət yetiririk. Biz həmçinin İranın donanmasını - bütöv bir donanmanı batırırıq. İndi İranın ən bacarıqlı sualtı qayığı da daxil olmaqla, 17 İran gəmisini məhv etmişik, bu gəminin yan tərəfində dəlik var".



O, həmçinin ABŞ-ın B-2 və B-1 strateji bombardmançı təyyarələrinin nəticələrini "danılmaz cərrahi zərbələr" adlandırıb: "Bu gün Fars körfəzində, Hörmüz boğazında və ya Oman körfəzində bir dənə də olsun İran gəmisi yoxdur. Və biz dayanmayacağıq".

Kuperin sözlərinə görə, "Epik Qəzəb" əməliyyatında 50 mindən çox Amerika əsgəri və 200-dən çox döyüş təyyarəsi iştirak edir və zərbələr gecə-gündüz həyata keçirilir: "Biz artıq 2000-dən çox sursatdan istifadə edərək təxminən 2000 hədəfi vurmuşuq. İranın hava hücumundan müdafiə sistemini ciddi şəkildə zəiflətmişik və yüzlərlə İran ballistik raketini, buraxılış qurğusunu və dronunu məhv etmişik".

Kuper qeyd edib ki, əməliyyatın əvvəlindən bəri İran Amerika hədəflərinə, İsrailə və ABŞ-ın müttəfiqi olan ərəb ölkələrinə qarşı cavab hücumlarında 500-dən çox ballistik raket və 2000-dən çox PUA atıb.

**4 mindən çox raket...**

İsrail Müdafiə Qüvvələri (İDF) bildirib ki, əməliyyatın başlanğıcından bəri İrana qarşı 4000-dən çox hava sursatı istifadə edilib. İDF-in sözçüsü, briqada generalı Efi Defrin bildirib ki, istifadə olunan sursatın həcmi artıq 2025-ci ilin iyun ayında İsrail və İran arasında baş verən 12 günlük müharibə zamanı atılan bombaların sayından çoxdur. Həmin müharibə zamanı təxminən 4000 bomba istifadə olunmuşdu. Sözçü əlavə edib ki, münaqişənin başlanğıcından bəri İsrail qırıcı təyyarələri təxminən 1600 döyüş uçuşu həyata keçirib.

**İran hədələdi...**

Bu arada İran Müdafiə Nazirliyi ABŞ və İsrailə yönəlik kəskin bəyanat yayıb. Rəsmi açıqlamada yaxın günlərdə ABŞ və İsrailin hərbi əməliyyatı dayandırmağa məcbur olacağı bildirilib. Nazirliyin bəyanatında vurğulanıb ki, əgər İranın "əsas mərkəzləri" hücuma məruz qalarsa, Tehran Yaxın Şərqin "bütün iqtisadi mərkəzlərinə" zərbələrlə cavab verəcək.

İran tərəfi həm də ABŞ ilə artıq heç bir danışıqlar aparmaq niyyətində olmadığını və müharibəni lazım olduğu qədər davam etdirməyə hazır olduğunu açıqlayıb. Bu barədə İranın ali rəhbərinin müşaviri Məhəmməd Moxber bildirib. "Biz amerikalılara etibar etmirik və onlarla heç bir danışıqlar aparmaq niyyətində deyilik. Zərurət yaranarsa, səkkizillik Müqəddəs Müdafiə dövründə (1980-1988-ci illər İran-İraq müharibəsi) olduğu kimi müharibəni istədiyimiz qədər davam etdirə bilərik", - deyə o bildirib.

ABŞ administrasiyası isə İran İslam Respublikasına qarşı elan edilən "Böyük hərbi əməliyyat"ın əsas hədəflərini açıqlayıb. Ağ Evin yaydığı rəsmi məlumatda əməliyyatın bir neçə strateji məqsəd daşıdığı bildirilib. Bəyanata əsasən, plan İranın demilitarizasiyasını, ABŞ-ın gələcək mümkün hücumlardan qorunmasını, ayətulla rəhbərliyindəki rejimin zərərsizləşdirilməsini və İranın proksi qüvvələrinin təsirindən mülki əhalinin müdafiəsini nəzərdə tutur. Açıqlamada vurğulanıb ki, əməliyyat ABŞ-ın milli təhlükəsizlik maraqları çərçivəsində həyata keçirilir.

**Qaani saxlanıldı...**

Qeyd edək ki, İranın keçmiş ali dini rəhbəri Əli Xamneinin öldürülməsi ilə bağlı müəyyən detallar bəlli olub. Belə ki, koordinatların əvvəlcədən qarşı tərəfə xəbər verilməsi şübhəsi ilə başlanan proses nəticələnib - SEPAH-ın ən strateji qanadlarından biri olan Qüds qüvvələrinin komandiri İsmail Qaani saxlanılıb. Onun ölkəsinə xəyanət etdiyi və xarici kəşfiyyat orqanları ilə işbirliyi qurduğu barədə məlumatlar yayılsa da, bu xəbərlərin heç biri rəsmi şəkildə təsdiqlənməyib. Qaani İsrailin kəşfiyyat xidməti - MOSSAD üçün casusluq etməkdə şübhəli bilinir və məhz İnqilab Mühafizəçilərinin keçirdiyi daxili əməliyyat nəticəsində nəzarət altına alınıb.

**Yeni lider seçildi...**

Bu arada İranda yeni dini lider seçilib. Öldürülən ali dini lider Ayətullah Əli Xameneinin yerini oğlu Müctəba Xamenei tutub. Müctəba Xamenei bu posta "Məclisi Xubregan"ın səsverməsi nəticəsində seçilib. Qeyd edək ki, Müctəba Xameneinin varis kimi önə çıxması prosesi artıq bir neçə ildir ki, davamlı hal almışdı. Əli Xameneinin yerinə onun ikinci oğlu Müctəba Xameneinin seçilməsi ölkənin siyasi tarixində ən mübahisəli və rezonanslı qərarlardan biri kimi qiymətləndirilir. 1969-cu ildə Məşhəd şəhərində anadan olan Müctəba Xamenei dini təhsilini əsasən Qum şəhərində alıb. Şiə fiqh məktəbinin klassik proqramlarını keçdiyi bildirilsə də, onun ali dini rütbəyə - mərceyi-təqlid səviyyəsinə yüksəlməsi geniş müzakirəyə səbəb olmuşdu. Qeyd olunur ki, SEPAH və Bəsic başda olmaqla İranın aparıcı silahlı qüvvələri məhz Müctəba Xameneinin əmrindədir. Müctəbanın bir çox mühüm proseslərə, o cümlədən 2005-ci il seçkilərində Əhmədinejadın prezident seçilməsinə və 2009-cu ildə etirazların zorakılıqla yatırılmasına birbaşa müdaxilə etdiyi də bildirilir.

Onun sərt təhlükəsizlik yanaşmasına üstünlük verəcəyi, SEPAH-ın regional siyasətdə rolunun daha da artacağı və Qərblə münasibətlərdə gərgin kursun davam edəcəyi ehtimal olunur.

Qeyd edək ki, İsrailin müdafiə naziri İsrael Katz İranın növbəti ali lideri olacaq hər kəsi öldürməklə hədələyib. Nazir bu barədə "X" sosial şəbəkəsində yaydığı bəyanatda bildirib: "İran rejimi tərəfindən İsraili məhv etmək, ABŞ-a, azad dünyaya və bölgə ölkələrinə təhdid yaratmaq, həmçinin İran xalqını boğmaq məqsədilə təyin olunacaq hər bir lider, qeyd-şərtsiz məhv edilməli hədəf olacaq".

**Hərbi təyyarə vuruldu...**

İranın "Tasnim" agentliyi ABŞ-a məxsus daha bir hərbi təyyarənin vurulduğunu iddia edib. Agentliyin xəbərinə görə, ABŞ-ın F-15 tipli qırıcısı İran Ordusunun hava hücumundan müdafiə sistemi tərəfindən zərərsizləşdirilib. Məlumatda insidentin vaxtı və məkanı ilə bağlı detallı informasiya verilməyib. ABŞ tərəfi isə hələlik bu iddiaya münasibət bildirməyib.

Eyni zamanda, İranın İsrail istiqamətində yeni raket seriyası buraxdığı bildirilib. İraqın INA agentliyinin məlumatına görə, raketlər İran ərazisindən İsrail istiqamətinə doğru atılıb. Hücumun nəticələri, eləcə də mümkün dağıntı və itkilər barədə açıqlama yoxdur. İsrail tərəfi isə insidentlə bağlı hələlik rəsmi bəyanat yaymayıb.

**3 günə 2 milyard dollar...**

ABŞ İrandakı əməliyyata 3 gün ərzində 2 milyard dollardan çox vəsait xərcləyib. Məlumata görə, hesablamalara hərbçilərin saxlanması, gəmilər, təyyarələr və digər hərbi infrastrukturla bağlı xərclər daxil edilib. Bundan başqa, Vaşinqton bir neçə Körfəz ölkəsinə İranın davam edən hücumlarından müdafiə olunmaq üçün silah və sursat verməkdən imtina edib. Bu barədə "Middle East Eye" Qərb və keçmiş Amerika rəsmisinə istinadən məlumat yayıb. Mənbənin sözlərinə görə, İran hücumlarından zərər görən azı bir Körfəz dövləti ABŞ və İsrailin İrana endirdiyi zərbələrdən sonra tükənən silah ehtiyatlarının bərpası üçün Vaşinqtona müraciət edib. Lakin bu istək qəbul olunmayıb. Digər mənbə isə bildirib ki, regionun daha bir ölkəsi ABŞ-ın onların hava hücumundan müdafiə sistemlərinə dəstək verməyə və öz ərazilərində yerləşən aviabazalardan istifadə etməyə hazır olub-olmadığını soruşub. Sabiq amerikalı məmurun sözlərinə görə, Fars körfəzi ölkələri yeni raket tədarükünə ümid etməməlidir.

**Kərəcdə partlayış...**

İranın paytaxtı Tehran yaxınlığında yerləşən Kərəc şəhərində bir neçə güclü partlayış baş verib. "Əl-Cəzirə"nin məlumatına görə, Kərəcdə ard-arda güclü partlayış səsləri eşidilib. Hadisə nəticəsində dəyən mümkün ziyan və xəsarət alanlar barədə hələlik rəsmi məlumat açıqlanmayıb. Eyni zamanda, İNA xəbər agentliyi İranın mərkəzində yerləşən Qum şəhərində də partlayışların baş verdiyini bildirib. "Tasnim" agentliyi isə İranın üçüncü ən böyük şəhəri olan İsfahan və paytaxt Tehranda bir neçə güclü partlayışın qeydə alındığını yazır.

**İraq, Qətər və Səudiyyə Ərəbistanına növbəti hücum...**

İraq Kürdüstanının paytaxtı Ərbildə də üç partlayış baş verib. "Shafaq News" portalı yerli mənbəyə istinadla məlumat yayıb ki, Kasnazan bölgəsinə yaxın ərazidə partlayıcı qurğularla dolu pilotsuz uçan aparat düşüb. Hadisə zamanı xəsarət alan olmayıb. İraqın "Saraya Avliya əl-Dam" silahlı qruplaşması bildirib ki, ABŞ-ın Ərbildəki qoşunlarını yerləşdirmək üçün istifadə etdiyi hotelə də pilotsuz təyyarə hücumu edilib.

Qətər Müdafiə Nazirliyinin məlumatına görə, İran ölkəyə doğru iki ballistik raket atıb. Onlardan biri Əl-Udeyd hərbi bazasına düşüb, digərini isə hava hücumundan müdafiə sistemi məhv edib. Nazirlik əlavə edib ki, xəsarət alan yoxdur.



Eyni zamanda, Səudiyyə Ərəbistanı hava hücumundan müdafiə sistemləri ölkənin mərkəzi üzərində ikiqanadlı raketi vurub. Nazirlik vurulan raketlərin Əl-Xərc şəhəri üzərində məhv edildiyini açıqlayıb.

**"Kilo" məhv edildi...**

ABŞ Hərbi Dəniz Qüvvələri İranın ən təhlükəli dəniz aktivlərindən biri hesab olunan "Kilo" sinfinə məxsus dizel-elektrik sualtı qayığını məhv edib. Bu əməliyyat Tehranın dənizdəki hərbi potensialına endirilmiş ən ağır zərbələrdən biri kimi qiymətləndirilir. Məlumatlara görə, "Kilo" sinfi sualtı qayıqlar İran donanmasının ən döyüşkən və strateji texnikaları sırasına daxildir. Dayaz sularda, xüsusən də Fars körfəzində gizli əməliyyatlar aparmaq üçün nəzərdə tutulan bu platformalar torpedo və gəmi-əleyhinə raketlərlə təchiz olunub. Həm hərbi gəmilər, həm də kommersiya gəmiçiliyi üçün ciddi təhdid yaradan bu qayıqlar "sakit qatil" kimi tanınırdı.

**"Viktoriya" hərbi bazası vuruldu...**

İraqın paytaxtı Bağdadın beynəlxalq hava limanı yaxınlığında yerləşən ABŞ-ın "Viktoriya" hərbi bazası pilotsuz uçuş aparatının hücumuna məruz qalıb. Zərbənin birbaşa hərbi obyektin strateji nöqtələrinə endirildiyi bildirilir. Məlumata görə, kamikadze dronu bazanın hava hücumundan müdafiə sistemlərini aşaraq əraziyə düşüb. Hadisə şahidləri aeroport yaxınlığında güclü partlayış səslərinin eşidildiyini və ərazidən tüstü yüksəldiyini qeyd ediblər. İlkin xəbərlərdə hücumun İrana məxsus və ya İranın dəstəklədiyi qruplaşmalar tərəfindən idarə olunan PUA vasitəsilə həyata keçirildiyi vurğulanır. Hazırda bazaya dəyən ziyanın miqyası və tələfat barədə rəsmi məlumat yoxdur. ABŞ hərbi rəsmiləri hadisə ilə bağlı araşdırmalara başlayıblar.

**Çindən növbəti xəbərdarlıq...**

Çin növbəti dəfə Yaxın Şərqdə genişmiqyaslı müharibə riskinin artması ilə bağlı ciddi narahatlığını ifadə edərək, beynəlxalq koalisiyanı hərbi əməliyyatları dərhal dayandırmağa çağırıb. Bu barədə Çin parlamentinin rəsmi nümayəndəsi Lou Tsintszyan bəyanatla çıxış edib. Pekin rəsmisi vurğulayıb ki, Çin İrandakı vəziyyəti diqqətlə izləyir və istənilən dövlətin milli suverenliyinə, təhlükəsizliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşılmasını zəruri hesab edir. O, tərəfləri eskalasiyadan qaçmağa səsləyərək bunları qeyd edib: "Çin tərəfi hərbi əməliyyatların dərhal dayandırılmasına, vəziyyətin daha da gərginləşməsinin qarşısının alınmasına, dialoq və danışıqların bərpasına çağırır. Yaxın Şərqdə sülh və sabitliyin qorunması qlobal təhlükəsizlik üçün həyati əhəmiyyət kəsb edir".

**Fransa da döyüşlərə qoşuldu...**

Fransa qırıcı təyyarələri BƏƏ-də İran dronlarını vurub. Bu barədə Fransanın xarici işlər naziri Jan-Noel Barro BFMTV-yə verdiyi açıqlamada bildirib. Onun sözlərinə görə, Fransa hərbi bazalarını qorumaq üçün Birləşmiş Ərəb Əmirliklərinin hava məkanına "Rafale" qırıcı təyyarələri göndərib. "Onlar bazalarımız üzərindəki hava məkanının təhlükəsizliyini təmin etdilər", - deyə Barro qeyd edib

**SEPAH 10 tankerə hücum edib...**

SEPAH isə Hörmüz boğazında ərazinin təhlükəli olması barədə xəbərdarlıqlara məhəl qoymayan 10-dan çox tankerə hücum edib. Bu barədə SEPAH-ın hərbi dəniz qüvvələrinin komandan müavini Məhəmməd Əkbərzadə məlumat yayıb. O bildirib ki, gəmilər boğazdan keçməzdən əvvəl bir neçə dəfə xəbərdarlıq edilib, lakin onlar irəliləməyə davam ediblər. O bildirib ki, 10-dan çox neft tankeri müxtəlif mərmilərlə vurulub və yandırılıb. Əkbərzadə deyib ki, SEPAH-ın hərbi dəniz qüvvələri əvvəllər qlobal naviqasiya şəbəkəsinə gəmilərə raket və ya pilotsuz təyyarə hücumları riski barədə xəbərdarlıq göndərib və əraziyə girməməyi tövsiyə edib.

***P.İSMAYILOV***

# Ötən əsrin ən böyük təhlükəsi!

## Nüvə silahının yayılmasının qarşısını almaq üçün...

20-ci əsr bəşər tarixində hərbi texnologiyanın sürətlə inkişaf etdiyi, eyni zamanda dünyada sülhün böyük təhdidlərə məruz qaldığı bir dövr oldu. Şübhəsiz ki, bu dövrün simvolu nüvə silahlarıdır. Nüvə silahı icad edildiyi, daha doğrusu, ilk istifadədən sonra nə qədər böyük dağıdıcı və məhvedici gücə malik olduğunu ortaya qoydu. Bəşəriyyətə, insanlığa qarşı bir silah kimi xarakterizə olunan nüvə silahı ayrı-ayrılıqda dünyanın aparıcı dövlətləri sayılan ölkələrin də qorxulu “kabusu”dur. Bu baxımdan, tarixdə dəfələrlə bu silahdan imtina və ya bu silahdan istifadənin qarşısının alınmasına yönəlik addımların şahidi olmuşuq.

Amma təəssüf ki, hələ də nüvə təhdidi öz aktuallığını qorumaqdadır. Xüsusilə, son illərdə bu təhdid yenidən aktiv şəkildə ortaya çıxıb. Qlobal güclərin savaşlarda tam üstünlük qazanmaq üçün nüvə silahı ritorikasına müraciəti isə qəbuledilməzdir.

**56 il əvvəl bu gün**

## 3 ölkənin razılığı ilə...

Martın 5-də dünya ictimaiyyəti Beynəlxalq Tərk-silah və Nüvə Silahlarının Yayılmaması üzrə Maarifləndirmə Gününü qeyd edir. Bu gün Nüvə Silahlarının Yayılmasının Qarşısının Alınması Müqaviləsinin qüvvəyə minməsinin 56-cı ildönümüdür.

Hələ ötən əsrin ikinci yarısının əvvəlində, bu silahdan istifadədən cəmi 23 il sonra Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə ilə bağlı fikirlər ortaya çıxdı. Bu müqavilə BMT-nin Silahsızlanma Komitəsi tərəfindən nüvə silahına malik olan ölkələrin dairəsinin genişlənməsinə güclü maneə yaratmaq məqsədi ilə hazırlanmış çoxtərəfli beynəlxalq sənəd idi. Sənədin əsas mahiyyəti isə bu cür silahların istifadəsi ilə silahlı münaqişənin başvermə ehtimalını məhdudlaşdırmaq üçün dövlətlər tərəfindən müqavilə üzrə öz öhdəliklərinin yerinə yetirilməsi üzərində zəruri beynəlxalq nəzarəti təmin etmək, nüvə enerjisindən dinc məqsədlərlə istifadə üçün geniş imkanlar yaratmaq idi. 12 iyun 1968-ci ildə BMT Baş Assambleyası tərəfindən təsdiq edilmiş və 1 iyul 1968-ci ildə Moskva, Vaşinqton və Londonda imzaya açılan sənəd 24 noyabr 1969-cu ildə SSRİ tərəfindən ratifikasiya olundu. Müqavilənin həyata keçirilməsində SSRİ-nin hüquqi varisi kimi Rusiya Federasiyası tanınır. Əsas depozitar dövlətlər (SSRİ, ABŞ, Böyük Britaniya), eləcə də 40 başqa ölkə tərəfindən ratifikasiya edilmiş bu müqavilə 1970-ci il martın 5-də qüvvəyə minib. Fransa və Çin müqaviləni 1992-ci ildə imzalayıblar. 1995-ci il mayın 11-də isə 170-dən çox iştirakçı ölkə heç bir əlavə şərt qoyulmadan müqaviləni qeyri-müəyyən müddətə uzatmağa razılaşıb.

## Müqavilənin şərtlərinə görə...

Qeyd edək ki, İsrail, Hindistan, Pakistan, Cənubi Sudan və KXDR (imzalandıqdan sonra müqavilədən çıxıb) istisna olmaqla, dünyanın demək olar ki, bütün müstəqil dövlətləri müqavilənin tərəfləridir. Müqaviləyə görə, nüvə silahına malik olan hər bir iştirakçı dövlət bu silahları və ya digər nüvə partlayıcı qurğularını, habelə onlara nəzarəti birbaşa və ya dolayı yolla heç kimə verməməyi öhdəsinə götürür. Müqaviləyə əsasən, heç bir şəkildə nüvə silahı olmayan dövlətə nüvə silahı və ya digər nüvə partlayıcı qurğular istehsal etməyə və ya başqa yolla əldə etməyə və ya üzərində nəzarət etməyə kömək etməyə, təşviq etməyə və ya sövq etməyə icazə verilmir. Müqavilə bütün iştirakçı dövlətlərə ayrı-seçkilik qoyulmadan və sənədə uyğun şəkildə dinc məqsədlər üçün nüvə enerjisinin tədqiqatını, istehsalını və istifadəsini inkişaf etdirmək üçün ayrılmaz hüquq müəyyən edir. Eyni zamanda, razılaşmaya mühüm əlavə kimi BMT Təhlükəsizlik Şurasının 1968-ci il 19 iyun tarixli qətnaməsi və 3 nüvə dövlətinin - SSRİ, ABŞ və Böyük Britaniyanın müqavilənin iştirakçısı olan qeyri-nüvə dövlətləri üçün təhlükəsizlik təminatları məsələsinə dair eyni bəyanatları daxildir. Qətnamədə qeyd olunur ki, qeyri-nüvə dövlətinə nüvə hücumu və ya belə bir hücum təhlükəsi yaranarsa, Təhlükəsizlik Şurası və ilk növbədə onun nüvə silahına malik daimi üzvləri təcavüzü dəf etmək üçün BMT Nizamnaməsinə uyğun olaraq dərhal hərəkətə keçməlidirlər.

Nüvə silahının yayılmamasına nəzarət Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) köməyi ilə həyata keçirilir. Müqavilənin nüvə silahına malik olmayan hər bir tərəfi müvafiq saziş bağlamağa borcludur.

6-cı maddə və müqavilənin preambulasında qeyd olunur ki, nüvə silahına malik dövlətlər öz nüvə ehtiyatlarını azaltmağa və məhv etməyə çalışacaqlar. Bununla belə, müqavilənin mövcud olduğu müddətdə bu istiqamətdə çox az işlər görülüb. Hər hansı bir dövlət özünü hansısa “fövqəladə hadisə” - məsələn, qəbul edilən təhdid nəticəsində buna məcbur hiss edərsə, müqavilədən çıxmaq hüququna malikdir.



## Hansı ölkələrin nüvə silahı var?

Qeyd edək ki, 3 dövlət - İsrail, Hindistan və Pakistan müqaviləni imzalamaqdan imtina edib. Bununla belə, hər üç dövlətin nüvə silahına malik olması ilə bağlı informasiyalar mövcuddur. Rəsmi İsrail nüvə inkişafı ilə bağlı iddiaları təsdiq və ya təkzib etməkdən imtina edir. MAQATE-nin üzvü olan İsrail müqaviləyə qoşulmayıb və nüvə ixracına nəzarət üzrə beynəlxalq müqavilələrin iştirakçısı deyil.

Hindistan və Pakistan da nüvə silahına malik olduqlarını bəyan ediblər və silahlarını sınaqdan keçiriblər. Bu ölkələr də heç vaxt müqaviləni imzalamayıblar. Cənubi Sudan isə 2011-ci ildə müstəqilliyini əldə etdikdən sonra sənədə imza atmayıb. Lakin bu dövlət gələcəkdə müqaviləyə qoşulma ehtimalını da istisna etməyib.

KXDR isə 1985-ci ilin aprelində SSRİ-nin köməyi ilə atom elektrik stansiyasının tikintisinə ümid edərək Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləni imzaladı. Sonradan isə MAQATE ilə fikir ayrılığı rəsmi Pxenyanın müqavilədən çıxması ilə nəticələndi.

## Təhlükə hələ də qalmaqdadır...

Bu gün də nüvə silahları ilə bağlı təhlükə qalmaqdadır. Ən böyük problem isə bu silahların miqdarının düzgün açıqlanmamasıdır. Məsələn, mənbələrin birində hazırda Rusiyanın 7500, ABŞ-ın isə 3 mindən çox nüvə başlıqlı raketinin mövcud olduğu qeyd edilir. Stokholm Beynəlxalq Sülh İnstitutu (SIPRI) və Amerika Elm Adamları Federasiyasının (FAS) 2019-cu ildə birgə apardığı araşdırmalara görə isə dünyada sadəcə 9 ölkədə nüvə silahı var. Siyahıya Rusiya rəhbərlik edir. 6 min 850 nüvə silahı olan Rusiyada prezident Vladimir Putinin bu silahları istədiyi kimi istifadə etmək hüququ var. İkinci yerdə ABŞ dayanır ki, onun da 6 min 450 nüvə silahı mövcuddur. Üçüncü yerdəki Fransanın isə sadəcə 300 ədəd nüvə silahı var ki, bu da prezidentin səlahiyyətindədir. İlk nüvə silahını 1952-ci ildə sınaqdan keçirən İngiltərə isə 225 ədəd nüvə başlığı ilə siyahının dördüncüsüdür. Bu ölkədə nüvə silahından istifadə hüququ ölkənin baş nazirində və ya onun təyin etdiyi bir millət vəkilində olur. Çindəki nüvə prosesləri haqqında çox məlumat yoxdur. 1964-1996-cı illər aralığında ölkədə 45 nüvə silahı sınaqdan çıxarılıb və hazırda Çinin 280 ədəd nüvə silahının olduğu ehtimal edilir. Bu, Çini siyahıda 5-ci yerə qoymağa icazə verir. İlk nüvə silahını 23 il bundan əvvəl sınaqdan çıxarmış Pakistan isə təxminən 140-150 nüvə başlığı ilə 6-cı yeri tutur. Pakistanda baş nazir Nüvə Qərargahına nəzarət etdiyi üçün nüvə silahları onun tabeçiliyində sayılır. 7-ci yerdəki Hindistanın isə 130 və ya 140 nüvə silahı olduğu ehtimal edilir. Burada da nüvə silahlarına baş nazir nəzarət edir. Nüvə silahı olan digər bütün ölkələrdən fərqli olaraq 8-ci yerdəki İsraildə bu silahların istifadə hüququ bir nəfərdə deyil. Beynəlxalq ictimaiyyət İsrailin nüvə silahı olduğundan şübhə eləmir, ancaq İsrail hökuməti indiyə kimi heç vaxt bu barədə rəsmi açıqlama verməyib. Sonuncu yerdəki Şimali Koreyanın isə 10 və ya 20 nüvə başlığı olduğu ehtimal olunur.

*Yeganə BAYRAMOVA*

# Həyatı özünə işlədən adam

## Çarlz Dikkensin “Devid Kopperfild” romanı haqqında

**əvvəli ötən saylarımızda**

İşlədiyi şəhərdə heç bir doğması, yaxını olmayan Devidin üzünü görməsə də, haqqında eşitdiyi tək qohumu Betsi xalaya pənah aparmaqdan başqa çarəsi qalmır. Peqqotiyə məktub yazıb miss Trotvudun yaşadığı yerin səmtini öyrənəndən sonra oğlan olan-olmazını bir sandıqçaya yığıb yola düzəlir. Poçt arabalarının dayandığı stansiyada onun yükünü də, pulunu da oğurlayırlar. Devid ac qalmamaq üçün gödəkçəsini satıb çörək alır, altı gün payi-piyada yol yeriyib həm ayaqqabılarını, həm də ayaqlarını dağıdır, yolda yüz cür təhlükəylə üzləşir.

***

Başına gələnləri danışandan sonra Betsi nənə yetimi qanadının altına alır, onu yedirdib-içirdir, geyindirib-kecindirir, körpə canını suya çəkib arılığa-duruluğa çıxardır. Miss Trotvud Mardstonlarla əlaqə yaradır, məlum olur ki, anasının mirasından Devidə pay ayrılmayıb, vəsiyyətnamədə bu barədə heç nə deyilmir. Tamahı qılıncdan iti bacı-qardaş zavallı gəlin ölüm yatağındaykən onun bütün var-yoxunu ələ keçirib, tifilinə bir çöp belə saxlamayıb. İşin işdən keçdiyini anlayan Betsi nənə bacısı oğlunun yetimini rəsmən himayəsinə götürür.

Bundan sonra Devid normal həyata qayıdır. Acıdil nənənin qəribəlikləri olsa da, ürəyi təmizdir, mərhəmətlidir. Miss Trotvudun dəlixanadan qurtardığı uşaq xislətli, sadəlövh, bir az ağıldan seyrək mister Dik də onun himayəsində yaşayır. Nənəsi Devidi Kenterberidə məktəbə qoyur, məktəbin pansionunda yer olmadığından uşaq miss Trotvudun vəkili Uikfildin evində məskunlaşır.

Arvadı cavan öləndən sonra mister Uikfild qəmini şərabla ovudur, onun tək təsəllisi Devidlə yaşıd qızı Aqnesdir. Tezliklə Aqnes Devidin də qoruyucu mələyinə çevrilir, onlar bir yerdə bacı-qardaş kimi böyüyürlər.

Uikfildin hüquq kontorunda Uriya Hip adlı kürən saçlı məlun bir tip də qulluq eləyir. Uriyanın vücudu ilan kimi qıvrılıb-açılır, kirpiyi tökülmüş qırmızı gözləri heç yumulmur, əlləri həmişə soyuq, nəm olur. Kəlməbaşı deyir ki, biz balaca adamlarıq, itaətkar bəndələrik.

Devidin oxuduğu indiki məktəb müəllimlərin şagirdlərə əzab-işgəncə verdiyi əvvəlki məktəbə bənzəmir, burada tələbələri heyvanla bir tutmurlar. Devid həvəslə oxuyur, nənəsinin, mister Dikin, Aqnesin işığından ömrünə sərmayə yığıb böyüyür.

Ağ günlərsə ağ yel kimi ömrə həlim sığal çəkib tez ötür, qara yeltək can evini xaraba qoymur...

***

Məktəbi bitirəndən sonra nənəsi Devidə Londona gedib Peqqotiyə baş çəkməyi, bir az gəzib dolaşıb dincəlməyi, sonra da ürəyincə bir iş seçməyi məsləhət görür. Devid səyahətə çıxır.

Londonda o, məktəbdəki himayədarı Stirfordla rastlaşır. Uşaqlıq dostu Devidi anasının evinə qonaq çağırır, öz növbəsində Devid də Stirforda birlikdə Yarmuta getməyi təklif eləyir.

Dostların səfəri yerinə düşür, onlar Emli ilə Hemin nişan mərasiminin üstünə çıxırlar. Emli artıq böyüyüb ərgən qız olub, özünün də yaxşı əl qabiliyyəti var, gözəl tikiş tikir, ilmələr vurur. Ətrafda yaşayan qızlar-qadınlar onun gözəlliyinə, geyinib-kecinmək zövqünə köks ötürürlər.

Yarmutda Devid dayəsinin komasında, Stirford meyxanada qalır. Devid günlərlə qəbiristanlığa ayaq döyür, doğma məzarların başına dolanır; Stirford isə dəniz qırağına gedir, dənizçilərə, balıqçılara səxavətlə ziyafət verir, əməli, davranışıyla sahildə yaşayan əhalini ovsunlayır, şüursuz bir ehtirasla adamları heyran qoyub ələ almağa, heç bir ehtiyac duymadığı, rəğbət bəsləmədiyi insanları belə öz iradəsindən asılı vəziyyətə salmağa çalışır. Devid onu özüylə gətirdiyinə peşman olur.

Stirford cazibəsiylə Emlini də başdan çıxarır, toyu ərəfəsində qız Stirforda qoşulub qaçır, niyyəti də bu olur ki, ya buralara kübar xanım kimi dönəcək, ya da yurduna bir daha üzükməyəcək.

Fədakar, səmimi Hem bu zərbədən möhkəm sarsılır, oğlanın əmisi mister Peqqoti şəhərləri küçə-küçə dolaşıb övladı kimi saxladığı Emlini soraqlayır. Uzun illər Emlidən xəbər çıxmır, nəhayət, Devid günün birində eşidir ki, Emli İtaliyada Stirfordun əlindən qaçıb, çünki qızdan bezəndən sonra ədəbaz aşiq onu öz mərtəbəsinə layiq bilmədiyindən Emliyə nə az, nə çox - nökərinə ərə getməyi təklif eləyib...

***

Betsi nənə Devidə hüquqşünas peşəsinə yiyələnməyi məsləhət görür, bundan ötrü min funt maya da qoyur, oğlanı paytaxtda yerbəyer eləyib evinə qayıdır.

Bundan sonra Devid Londonda sərbəst həyata başlayır, burada o, başqa bir məktəb yoldaşı Tommi Tredlslə tapışır. Tommi də hüquq sahəsində çalışır, arxası-dayağı olmadığından dolanışığını da, təhsilini də öz gücünə yola verir. Dostların bir-birinə deyiləsi sözü çoxdur - Tredls uşaqlıq yoldaşına nişanlısı Sofidən, Devid ona təcrübə keçdiyi hüquq firmasının yiyəsi mister Spenlounun qızı Doradan danışır.

Həyat ona üz verməsə də, Tommi çox nikbin, xoşsifət oğlandır. Söhbət əsnasında məlum olur ki, Tredls Mikoberlərin mənzilində qalır, onlar yenə borc içində çabalayırlar. Devid köhnə tanışlarını tapdığına sevinir. Deyəsən, bu dəfə bəxt mister Mikoberin üzünə güləcək, çünki o, Kenterberidə yerləşən “Uikfild və Hip” kontorunda özünə yeni iş tapıb...

Mister Uikfildin zəif damarını tutan Uriya Hip artıq onun işçisindən şərikinə çevrilib, indi də yavaş-yavaş firmanı öz əlinə keçirməkdədir. O, qəsdən işləri dolaşdırıb həm şirkəti, həm müştəriləri qarət eləyir, üstəlik, fırıldaqlarını bu yolla pərdələyir ki, guya bütün uğursuzluqların səbəbi mister Uikfildin içkiyə qurşanmasıdır.

Xərclərə qənaət bəhanəsiylə “məzlum, itaətkar” Uriya anasını da yanına alıb Uikfildin evinə köçür, bundan sonra illər boyu qıvrılan gövdəsinin qaranlıq qatlarında bəslədiyi niyyətini büruzə verməyə başlayır: Aqnesə yiyələnib bu yolla mister Uikfildin var-yoxunu əlindən almaq istəyir. Mikoberi də kontora bundan ötrü çəkib gətirib ki, onun çirkin işlərini təmizə çıxarsın, maxinasiyalarını ört-basdır eləsin.

Betsi nənə də Uriya Hipin qurbanlarından biridir, şeytan nökərinin fırıldağı ucbatından miss Trotvud da müflis olub. Bu səbəbdən qadın sakit guşədəki evini kirayə verib mister Diklə birlikdə təbiət qoynunda Londona daşınır.

***

Devid yükünün artmağına darılmır, daha yaxşı donluqla yeni işə düzəlir, üstəlik, stenoqrafiya öyrənir. Betsi nənə ev təsərrüfatını necə ustalıqla idarə eləyirsə, Devidə elə gəlir xərcləri nəinki artmayıb, əksinə, azalıb. Bu yandan mister Dik də kağızların üzünü köçürməklə ailə büdcəsinə azdan-çoxdan töhfə verir.

Stenoqrafçı peşəsinə yiyələnəndən sonra Devid parlament müxbiri qismində babat qazanmağa başlayır. Fəqət Doranın atası mister Spenlou Devidin qarğaşasının artdığını biləndə qızını ona adaxlamaq fikrini qəti yaxına buraxmır, bu azmış kimi Dora özü də yoxsulluqdan yamanca qorxur.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 15-ci günün duası

**“Allahummərzuqni fihi taətəl-xaşiin. Vəşrih fihi sədri bi-inabətil-muxbitin. Bi-əmanikə ya əmanəl- xaifin”.**

**Tərcüməsi:**

**“İlahi, bu gün qəlbində Allah xofu olan şəxslərə məxsus itaəti mənə nəsib et! Bu gün sinəmi məvazökarların tövbəsi ilə genişləndir! Əminliyinə and verirəm, ey qorxu əhlinə əminlik bəxş edən Allah!”**

# Azərbaycan həm də idman ölkəsidir...

## İdmanın inkişafı bölgələrimizdə də yüksək dinamikaya malikdir

Bədən tərbiyəsi və idman yalnız fiziki fəaliyyətlərdən ibarət deyil. Bu sahə həm əqli, həm də fiziki sağlamlığımızı inkişaf etdirir, hər yaş qrupunun diqqətini çəkməyi bacarır.

Ölkəmizdə idmanın inkişafı hər il daha geniş vüsət alır. Azərbaycan indi dünyada güclü idman ölkəsi kimi tanınır. Yeri gəlmişkən, martın 5-i Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günüdür. Bu gün Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamına əsasən qeyd edilir. Ölkəmizdə Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması isə təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.

### Paytaxtımız mötəbər yarışların mərkəzinə çevrilib

Bu gün nəinki Bakıda, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri tikilib, çoxsaylı idman mərkəzləri uğurla fəaliyyət göstərir. İdman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə Birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2020-ci ildə bədii gimnastika üzrə dünya çempionatının, 2023-cü ildə taekvondo üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prilərinin yüksək səviyyədə təşkil olunmasına imkan verib.




### Bölgələrimiz də idman yarışları üçün əlverişlidir

Ölkəmiz beynəlxalq nüfuzlu idman yarışlarının keçirilməsi üçün əlverişli məkana çevrilib. İndi nəinki Bakıda, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri tikilib. Həmin idman mərkəzləri uğurla fəaliyyət göstərir. Bölgələrimizdə də yerli və beynəlxalq turnirlər yüksək səviyyədə təşkil olunur. Bu, onu göstərir ki, Azərbaycan nüfuzlu yarışları yalnız paytaxt Bakıda deyil, idman infrastrukturu olan regionlarda da qəbul etməyə tam hazırdır. 2023-cü ildən işğaldan azad olunmuş ərazilərimizdə də beynəlxalq turnirlərin təşkilinə start verildi.



### Döyüş meydanlarında tarix yazan idmançılar...

Daim Azərbaycan bayrağını qürurla dalğalandırmaq üçün bütün yarışlarda yüksək əzmkarlıqla mübarizə aparan idmançılarımız Vətən müharibəsində də eyni amalla - üçrəngli bayrağımızın əzəli torpaqlarımızda ucaldılması üçün cəbhəyə yollanıblar. 44 günlük müharibədə 988 nəfər idmançı döyüşlərdə iştirak edib. Onlardan 320 nəfər şəhidlik zirvəsinə ucalıb. 2020-ci ildə pandemiya səbəbindən beynəlxalq yarışlarda iştirak edə bilməyən Azərbaycan idmançıları Zəfər salnaməsini bu dəfə öz canları və qanları ilə Vətən müharibəsinin döyüş meydanlarında yazıblar. Beynəlxalq arenalarda yüksək qələbələr qazanaraq Azərbaycanın bayrağını ucaldan, dövlət himnimizin səsləndirilməsinə nail olan atletlərimiz bu əbədi Zəfər yolunun layiqli davamçıları olduqlarını sübut ediblər.

Bu gün sevindirici məqamlardan biri də ondan ibarətdir ki, azad olunmuş torpaqlarda artıq idman tədbirləri təşkil olunur. 2022-ci il martın 20-də Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu səfəri işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qalıb. Həmin il mayın 6-da Suqovuşan qəsəbəsində avarçəkmə, kayak və kanoe üzrə “Prezident kuboku-2022” reqatası start götürüb. İşğaldan azad olunmuş ərazilərdə ilk beynəlxalq idman yarışı olan bu turnir Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilib.

Həmin il oktyabr ayının 21-də Suqovuşanda Avropa Kanoe Assosiasiyasının rəsmi təqvim planında yer alan “Mingəçevir Reqatası-2022” beynəlxalq turnirinin açılış mərasimi və ilk yarış günü təşkil edilib. Bundan başqa 2022-ci il oktyabr ayının 22-də Zəngilan rayonunun Ağalı kəndində “Zəfər yürüşü” adlı triatlon turniri keçirilib.

### İdman tariximizin ən önəmli hadisəsi

2023-cü ilin sonları tarixi hadisə ilə əlamətdar olub. Belə ki, həmin il dekabrın 21-də işğaldan azad olunan Xankəndi şəhərində tarixi futbol matçı keçirilib. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları qarşılaşıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da oyuna baxmaq üçün stadiona gəliblər.

Sevindirici haldır ki, bu gün Azərbaycan Qarabağa həm də öz idman ənənəsi ilə qayıdıb. Bu qayıdış ölkəmiz, xalqımız üçün bir bayrama çevrilib. Demək ola ki, hər il ölkə idmanı üçün daha məsuliyyətli və idman yarışları ilə zəngin olur.

*Yeganə BAYRAMOVA*

# Sosial ədaləti necə təşviq etməli?

## İki beynəlxalq təşkilat süni intellekt dövründə iş yerlərində yaranan risklər barədə xəbərdarlıq edib



Süni intellekt texnologiyalarının tətbiqi məzmun moderatorları və məlumat etiketləyicilərindən tutmuş, rəqəmsal platformalarda işləyən kuryerlərə və sürücülərə qədər müxtəlif peşə sahiblərinin iş şəraitinə getdikcə daha çox təsir göstərir.

AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, bu, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Beynəlxalq Elektrorabitə İttifaqı (BEİ) tərəfindən süni intellektin məşğulluğa təsiri ilə bağlı keçirdikləri birgə tədbirdən sonra dərc olunmuş sənəddə bildirilir.

Mütəxəssislər qeyd edirlər ki, çatbotlar, sosial media alqoritmləri və digər avtomatlaşdırılmış sistemlərin arxasında “görünməz” işçi qüvvəsi fəaliyyət göstərir. Buraya, əsasən, gündəlik rejimdə zərərli məzmunu yoxlayan kontent moderatorları və alqoritmləri öyrətmək üçün məlumatları strukturlaşdıran data annotasiyası üzrə mütəxəssislər daxildir.

Beynəlxalq həmkarlar ittifaqı şəbəkəsi “UNI Global Union”un nümayəndəsi Ben Riçards vurğulayıb ki, yaşadıqları ölkədən asılı olmayaraq, bu işçilər həddindən artıq təzyiq, daimi monitorinq, aşağı əməkhaqqı və əqli sağlamlıq riskləri ilə üzləşirlər. O bildirib ki, təşkilat qlobal kontent moderatorları ittifaqının yaradılmasını, həmçinin birləşmək hüququna və kollektiv danışıqlara əsaslanan təhlükəsiz iş protokollarının hazırlanmasını təşviq edir.

BMT-nin materiallarında, həmçinin proqram təminatı sistemlərinin iş tempini müəyyən etdiyi, tapşırıqlar verdiyi və işçilərin fəaliyyətini qiymətləndirdiyi alqoritmik idarəetmənin yayılması ilə bağlı məlumatlara istinad edilir. Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının iqtisadi və sosial siyasət direktoru Evelin Astorun sözlərinə görə, lazımi tənzimləmə olmadan, süni intellekt işçilərin təhlükəsizliyinə təhdidlər də daxil olmaqla mövcud riskləri daha da artıra bilər.

Xüsusilə, həmkarlar ittifaqları kuryerlərin iştirakı ilə baş verən yol qəzaları hallarını sənədləşdirib. Onların iddialarına görə, bu insidentlər alqoritmlər tərəfindən müəyyən edilmiş ciddi çatdırılma müddətlərinə riayət etmək zərurəti ilə bağlıdır. Kembric Universitetinin 2025-ci ildə dərc etdiyi bir araşdırma göstərib ki, Böyük Britaniyada sürücülərin və kuryerlərin təxminən üçdə ikisi “ədalətsiz rəy” və avtomatlaşdırılmış sistemlər tərəfindən müəyyən edilən cədvəl dəyişiklikləri səbəbindən narahatlıq keçirir.

Mütəxəssislər qeyd edirlər ki, təhlükəsizlik qaydalarını pozmaq üzrə birbaşa göstərişlər olmasa belə, cərimələr, bonuslar və prioritetləşdirilmiş sifariş bölgüsü sistemi işçiləri riskli qərarlar qəbul etməyə təşviq edə bilər. Oxşar problemlər növbələrin bölünməsi, əməkhaqqının müəyyənləşdirilməsi və ya kadr qərarlarının qəbul edilməsi üçün alqoritmlərin istifadə edildiyi digər sektorlarda da müşahidə olunub.

BEİ-nin nümayəndəsi Bilal Camusi süni intellektdən artıq işə qəbul və xidmətlərə çıxışa təsir edən sistemlərdə istifadə olunduğunu xatırladıb. O, bu cür qərarların etibarlılığını və şəffaflığını təmin etmək üçün texniki standartların və təlimlərin hazırlanmasının vacibliyini vurğulayıb.

BƏT-in rəqəmsallaşma və süni intellekt üzrə koordinatoru Şer Verik isə qeyd edib ki, məsələ artıq süni intellektin iş dünyasını dəyişdirməsi deyil, həmin dəyişikliklərin layiqli məşğulluğu və sosial ədaləti necə təşviq etməsidir.

BƏT və BEİ “Xeyirxahlıq üçün süni intellekt” platforması və Sosial Ədalət üzrə Qlobal Koalisiya da daxil olmaqla, süni intellektin əmək bazarına təsirini tənzimləmək üçün qlobal yanaşmaların hazırlanmasına yönəlmiş beynəlxalq təşəbbüsləri təşviq edir. BMT vurğulayır ki, bu sistemin aradan qaldırılacaq əsas çətinliyi süni intellektin insan potensialını açması, işçilərin təhlükəsizliyini və rifahını təmin etməsidir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4929**
**Sifariş: 326**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova